# Narkomaniyaya yox deyək

Məlum məsələdir ki, bu gün artıq «Ağ ölüm» şərti adı qazanan narkotik hansısa planetdən göndərilməyib özümüzün-özümüzə qənim kəsilməyimizin arzuolunmaz nəticəsi kimi ortada «meydan sulayır». Hər bir ölkənin dövlət strukturları, qeyri-hökumət təşkilatları, ictimaiyyət, KİV, hüquq-mühafizə orqanları, təhsil və səhiyyə sistemi bəşəriyyətin bəlasına qarşı birgə mübarizəni genişləndirməklə uğur qazana bilərlər. «Ağ ölüm»ə ağ bayraq qaldırmaq yalnız beynəlxalq qurumların, uyğun strukturların, cavabdeh şəxslərin qoşulduğu birgə, səmərəli əməkdaşlıq yolu ilə mümkündür.

Son iki əsrdə bu bəla bəşəri xarakter alıb. Gənclər, hətta qadınlar, məktəb yaşlı yeniyetmələr arasında narkotik maddələrin qəbuluna meylin artması açıq-aşkar hiss olunmaqdadır. Açığı, Azərbaycan da bu sosial bəladan kənarda qalmayıb. Ölkəmizin geopolitik mövqeyi, Qərblə Şərqin arasında bir körpü rolu oynaması zaman-zaman narkotik maddələrin qaçaqmalçılığına rəvac verib. Amma Azərbaycan hökumətinin həyata keçirdiyi radikal tədbirlər gözlənilən fəsadların qarşısını almağa nəzərəçarpan dərəcədə kömək etmişdir. Bu fikirlər yanvar ayının 13-də səhər mədəniyyət mərkəzində narkotiklərlə mübarizə məsələsinə həsr olunmuş geniş yığıncaqda səslənmişdir.

Yığıncaqda ayrı-ayrı təşkilat və müəssisələrin nümayəndələri, şəhər məktəblərinin yuxarı siniflərinin şagirdləri, müəllimlər və gənclər iştirak etmişdir.

Tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının birinci müavini, narkomaniyaya qarşı mübarizə komissiyasının sədri Abil Ağasəfov tədbiri giriş sözü ilə açdı. O, «Narkomaniyaya və narkobiznesə qarşı» mübarizə mövzusunda, məruzə etmək üçün sözü rayon polis şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Ramil Qədirova verdi.

Məruzəçi qeyd etdi ki, müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə



onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisini birdən-birə azaldır, ümumi zəhərlənmə baş verir. Beləliklə, narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkomanlar eyni iynədən istifadə etdiklərindən bir çox xəstəliklərə tutulurlar. Bütün dünyada, bununla bağlı mübarizə getsə də, insanlıq üçün böyük bəla olan narkomaniya hələ yayılmaqda davam edir.

Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə bu gün Yer kürəsində 250 milyondan artıq insan narkotik maddələrin qəbulundan əziyyət çəkir, 50 milyon insan isə artıq narkomanlıq xəstəliyinin qurbanlarına çevrilmişdir.

Məruzəçi daha sonra vurğuladı ki, 2001-ci ildə Avropa İttifaqının maliyyə yardımı ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı Azərbaycan hökuməti ilə xüsusi saziş imzalayaraq narkotik maddələrin dövriyyəsinin, habelə narkomanlığın aradan qaldırılması istiqamətində aparılan reformalara yardım məqsədilə xüsusi proqram hazırlamışdı. Bununla da Cənubi Qafqazın hər üç ölkəsində proqramın icrasının həyata keçirilməsinə xüsusi razılıq əldə edilmişdi. Beləliklə artıq 15 ilə yaxındır ki, Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı—SKAD Azərbaycanda da uğurla fəaliyyət göstərir. Bu müddət ərzində Azərbaycanın ictimai-siyasi həyatında olduğu kimi, proqramın icrasında da bir sıra pozitiv dəyişikliklər baş vermişdir. 1996-cı ildə ulu ön-



dər Heydər Əliyevin sərəncamı ilə yaradılan xüsusi komissiya ölkəmizdə narkotik maddələrin qeyri-qanuni dövriyyəsinin və narkomanlığın qarşısının alınması üçün bütün ali hakimiyyət orqanlarını, dövlət institutlarını bir araya gətirərək koordinasiya işini təşkil etməyə nail olmuşdur.

Ötən müddətdə Azərbaycan hökuməti bu proqram çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün çox böyük addımlar atmışdır. Milli Məclisdə üç qanun işlənib hazırlanaraq ölkə başçısı tərəfindən təsdiq edildikdən sonra hazırda icra olunmaqdadır. Məhz bu qanunlar Azərbaycanda narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınmasında, narkotik maddələrdən istifadə etmiş insanların həyata qayıtmasında, onların hüquqlarının müdafiəsi sahəsində xüsusi mexanizmlər yaratmağa imkan vermişdir.

Adı çəkilən problemlərin həllində beynəlxalq ictimaiyyətlə əlaqələrin intensivləşməsi böyük rol oynayır. SKAD proqramının reallaşmasında beynəlxalq əməkdaşlığın rolu əvəzsizdir. Son 10—15 ildə Azərbaycan hökumətinin qazandığı iqtisadi siyasi uğurlarla yanaşı, narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq təşkilatlar tərəfindən rəğbətlə qarşılanmışdır. Avropa Şurası Parlament Assambleyası, Avropa komissiyası, BMT-nin Narkotiklərlə və Cinayətkarlıqla Mübarizə İdarəsi bütün bu təşkilatlar Azərbaycanda aparılan islahatları bəyənmiş və dəstəkləmişdir.

Azərbaycan hökuməti beynəlxalq qurumların donor təşkilatların dəstəyi və maliyyə yardımı ilə mövcud problemin aradan qaldırılmasında böyük uğurlar qazanıb. Müqayisə göstərir ki, 10-15 il əvvəl ölkənin hüquq-mühafizə orqanları il ərzində qeyri-qanuni dövriyyədən cəmi 1 kiloqramadək narkotik maddə, əsasən də heroin çıxara bilirdisə, artıq bu rəqəm bir neçə tonu ötmüşdür. Digər tərəfdən narkotiklərlə aludə olmuş şəxslər əvvəllər cinayətkar kimi qələmə verilirdisə, son zamanlar ictimaiyyət artıq başa düşmüşdür ki, narkomaniya əslində bir xəstəlikdir, narkomaniyaya düçar olmuş insanlar sadəcə xəstədirlər, onların müalicəsinə, reabilitasiyasına ciddi yanaşmaq gərəkdir və bu işdə şübhəsiz ki, ictimaiyyət dövlətə yardımçı olmalıdır. Azərbaycanın bu sahədəki siyasəti beynəlxalq standartlarla tam üst-üstə düşür.

Məruzəçi həmçinin qeyd etdi ki, ölkə başçısı cənab İlham Əliyev 24 iyun 2013-cü il tarixdən «Narkotik vasitələrin, psixotor maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013- 2018-ci illər üçün Dövlət Proqramı» təsdiq etmişdir.

Dövlət Proqramının məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəni gücləndirməkdən ibarətdir. Eyni zamanda narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərirnə uyğunlaşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktik araşdırılmanın aparılması nəzərdə tutulur.

Məruzəçi ölkəmizin hər bir regionunda olduğu kimi, Qəbələ rayonunda da narkomaniyaya qarşı mübarizənin gücləndiyini iştirakçıların diqqətinə çatdırdı. Qeyd etdi ki, 2014-cü ildə rayon ərazisində 8 fakt qeydə alınmışdır. 5 nəfər barəsində cinayət işi başlanıb məhkəməyə verilmiş, 3 nəfər barəsində inzibati tədbir görülmüşdür. İl ərzində yabanı halda bitmiş 7 ton 900 kq kənaf bitkisi məhv edilmişdir. Hazırda 37 nəfər şəxs narkoman kimi rayon mərkəzi xəstəxanasının narkoloji dispanser qeydiyyatındadır.

Yığıncaqda rayon icra hakimiyyətinin məsləhətçisi Şükür Tahirov və rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış etmiş və onlar narkomaniyanın törətdiyi fəsadlardan geniş danışmışlar.

Tədbiri Abil Ağasəfov yekunlaşdırdı.

Sonda narkomaniya bəşəri bəlası ilə bağlı hazırlanmış qısa metrajlı sənədli film nümayiş etdirildi.

**Aslan CƏLİLOV.**